Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**Nizaminin yanında özünü öyən olmaz,**
**Nizami olan yerdə şairəm deyən olmaz.**



# Sönməz günəşin hikmət dəryası

***Nizami Gəncəvinin 875 illik yubileyi münasibəti ilə hazırlanmış metodik vəsait***

**Bakı – 2016**

Tərtibçi: **Könül Səmədzadə**
**Sevil Əhmədova**

Redaktor və
buraxılışa məsul: **Zahirə Dadaşova**

**Sönməz günəşin hikmət dəryası:** Nizami Gəncəvinin 875 illik yubileyi münasibəti ilə MKS-in uşaq şöbələri, məktəb, kollec, lisey kitabxanaları üçün hazırlanmış metodiki vəsait /tərt. ed. K.Səmədzadə; red. və burax. məsul Z. Dadaşova ; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası**

**2016**

Biz Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin adlarını böyük iftixar hissi ilə çəkirik və onların əsərlərini oxuyaraq xalqımızın nə qədər dahi, müdrik və istedadlı xalq olduğunu bir daha dərk edirik. Eyni zamanda, dünya, bəşər qarşısında bununla fəxr edirik, öyünürük. Öyünməyə də haqqımız var. Çünki bu böyük insanlar nəinki bizim xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

***Tərtibçidən:***

Nizami Gəncəvi Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi dahi şəxsiyyətlərdən biridir. O, humanist, mütəfəkkir şair kimi şöhrət qazanmışdır. Doqquz yüz ilə yaxındır ki, əsərləri dünya bədii söz xəzinəsinin incisi kimi bütün nəsillərin, eləcə də bizim mənəvi müasirimizdir.

Nizami yaradıcılığı dərindən tədqiq olunduqca, bütün dolğunluğu ilə öyrənildikcə, daha böyük tərbiyəvi əhəmiyyət kəsb edir. Məhz bu cəhət şairin ədəbi irsinin tədqiqinə, təbliğinə və nəşrinə diqqəti artırmağı tələb edir.

Nizami Gəncəvi irsinin geniş təbliği işində ümumtəhsil məktəblərinin, mədəniyyət ocaqlarının üzərinə böyük vəzifə düsür. Şairin əsərlərinin öyrənilməsinə maraq oyatmaq lap aşağı siniflərdən başlanmalıdır. Məktəb proqramlarında şairin əsərlərinin öyrənilməsinə geniş yer verilir. Elə bu baxımdan da, məktəblərlə yanaşı, kitabxanaların da üzərinə böyük vəzifə düşür. Biz də bir kitabxanaçı olaraq, Nizami irsinin öyrənilməsi və təbliğ olunması üçün bir çox tədbirlər planı hazırlamışıq. Ümidvarıq ki, görkəmli şairin yubileyi ilə bağlı təqdim etdiyimiz metodiki vəsait sizin istifadə edə biləcəyiniz vəsaitlərdən biri olacaqdır.

# I Bölmə

## Həyat və yaradıcılığı

Nizami Gəncəvi 1141-ci ildə Azərbaycanın qədim şəhərlərindən biri olan Gəncədə doğulmuş, ömrünün axırına qədər orada yaşamış, yazıb-yaratmışdır. Nizami 1209-cu ildə vəfat etmişdir.

Şairin əsl adı İlyas, atasının adı Yusifdir. Nizami onun təxəllüsüdür. Bu təxəllüs onun həyatda və həyatının mənası saydığı poeziyada qarşısına qoyduğu məqsədləri son dərəcə dəqiq ifadə edirdi. "Nizami-nizamlayan, nizam verən, qaydaya salan" deməkdir.

Nizami Gəncə şəhərində mədrəsə təhsili almışdır, lakin o, dövrünün bir sıra elm sahələrinə (fəlsəfə, tibb, həndəsə, astronomiya və s.) dərindən bələd olmuşdur. Bunlarla yanaşı, dünya mədəniyyəti, xüsusilə yunan, ərəb, fars mədəniyyəti ilə, Qafqaz xalqlarının tarixi ilə maraqlanmış, onların folklorunu öyrənmişdir. Nizami ərəb, fars dillərini mükəmməl bilmiş və bir sıra dillərə yaxından bələd olmuşdur. O, bunlara müstəqil mütaliə yolu ilə nail olmuşdur. Müstəqil mütaliə şairin dərin, hərtərəfli bilik qazanmasına imkan vermişdir.

Əsərləri yüzilliklərdən bəri sevilə-sevilə oxunub bu gün də ürəkləri fəth edən dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşər mədəniyyətinin yetirdiyi nadir şəxsiyyətlərdəndir. Söz dünyasının günəşi, hələ saglığında əsərləri möcüzə sayılan Nizami özü də yaradıcılığının dəyərini yaxşı bilmişdir. Dahi sənətkar bədii fikir tarixini insan səadəti, mənəvi yüksəklik, mənalı ömür, azad və ədalətli cəmiyyət və. s. kimi əhəmiyyətini heç vaxt itirməyən ölməz ideyalarla zənginləşdirmişdir. Nizami sənəti özünün humanist ruhu, xalq arzu və istəklərinin aydın, təsirli ifadəsi ilə seçilir. Buna görədir ki, bu zəngin irs bütün dövrlərdə müasir səslənmiş, təqdir olunaraq izlənilmişdir. Şair "Sirlər xəzinəsi" poemasında belə bir fikir

yürüdür ki, elmin, mədəniyyətin, ədəbiyyatın inkişafında dəmir bir qanunauyğunluq var. Nizami özündən əvvəlkilərlə müqayisədə şeiri elə bir əlçatmaz yüksəkliyə qaldırmışdır ki, sonradan gələn sənətkarlar artıq ondan yüksəyə qalxmaq xülyasına düşməmiş, onun yolu ilə getməyi, ona bənzəməyi, onun şagirdi olmağı özləri üçün fəxarət saymışlar. Nizami mövzularında əsərlər yazmaq, ondan mənalar iqtibas etmək artıq bir ənənəyə çevrilmişdi.

Şairin oxucunu həyata, insanlığa qarşı məhəbbət ruhunda tərbiyələndirən ölməz əsərləri bu gün də gözəllikləri, ülviyyəti dərk etməyə çağırır, ağlın, qüdrətinə, haqqın, ictimai xeyirin qələbəsinə inam hissləri oyadır.

Nizami Gəncəvi 1141-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Şairin yaşayıb-yaratdığı XII əsr mədəni-elmi nailiyyətlərlə zəngin bir dövr idi. Şairin əsərlərindən anlaşılan budur ki, o, təhsilini də öz doğma şəhərində almiş, hələ çox gənc ikən ərəb, pəhləvi, fars və çox güman ki, yunan dilini də öyrənmiş, zəmanəsinin elmlərinə dərindən yiyələnmişdir. O dövrdə Gəncə şəhərində təhsil almaq üçün kifayət qədər geniş imkanlar var idi. Şair "Xəmsə"də adının İlyas, atasının adının Yusif, babasının adının Zəki Müəyyəd olduğunu göstərmişdir. Alimlər onun babasının adındakı iki sözdən birinin ləqəb olduğunu düşünürlər ki, bu da şairin mövqe, hörmət sahibi olduğunu düşünməyə əsas verir. Şair əsərlərində ancaq Nizami təxəllüsünü işlətmişdir. Bu söz nizamlı, ölçülü sözə, nəzmə, başqa ifadə ilə desək, şeirə mənsub olan adam deməkdir. Nizaminin ləqəbini bəzi qaynaqlar Nizaməddin, yaxud Cəmaləddin kimi yazırlar, ancaq şairin əsərlərində bu ləqəbi təsdiqləyəcək əlamətlər yoxdur.

Nizaminin doğulduğu, ömrü boyu yaşadığı və vəfat etdiyi yer Gəncə şəhəridir. Bütün qədim və etibarlı mənbələrdə onun Gəncəyə gəlmə olduğu barədə heç bir qeyd yoxdur. Ancaq Nizami əsərlərinin XVI əsrdə və

sonralar köçürülmüş nüsxələrində “İqbalnamə”nin bir yerində şair Gəncədən danışan zaman fikir yarımçıq kəsilərək aşağıdakı dörd misra artırılmışdır:

Gəncə dənizində olsam da pünhan,
Yerim Qum şəhridir, yurdum Qohestan.
Təfrişdə Ta adlı bir kənd dayanıb,
Nizami ad-sanı ordan qazanıb!

Nizami çox gənc yaşlarından ədəbi yaradıcılığa başlamış və ilk çağlardan sarayların diqqətini cəlb etmişdir. Zəmanəsinin hökmdarları şairi öz saraylarına gətirmək istəmiş, bu məqsədlə ona qiymətli hədiyyələr gondərmişlər. Lakin şair şahların saraya gəlmək təkliflərindən inadla boyun qaçırmış, ömrünün sonuna qədər Gəncədən kənara çıxmamış, heç kimin himayəsinə sığınmamışdır. Dərbənd hakimi Bəybars ibn Müzəffərə göndərdiyi hər şeyə görə qiymətli hədiyyələrə layiq görülmüş, ərməğanı olan Afaq adlı qadınla evlənmiş və ondan da 1174-cü ildə Mühəmməd adlı bir oğlu olmuşdur. Ancaq onların ailə səadəti uzun sürmür. Afaq çox gənc yaşlarında vəfat edir. Nizami bu vaxtsız ölümü ömrü boyu unutmamış, əsərlərində özünün ilk məhəbbətini tez-tez xatırlamış, hətta “Xosrov və Şirin” əsərindəki Şirin obrazı üzərində işlərkən sevimli qadınını göz önündə tutmuşdur. Sonralar şair daha iki dəfə evlənsə də, Afaqı ömrü boyu sevgi ilə xatırlamış, taleyinin uğursuzluğundan gileylənmişdir.

Nizami özünün yeganə ovladı olan Məhəmmədi də çox sevmiş, əsərlərində bir neçə yerdə ona nəsihətlər etmişdir. Dahi şair öz poemalarında müasirlərinə olan münasibəti, doğma vətənə, xalqına məhəbbəti, gəncliyə qaygısı və. s. haqqında da aydın məlumat verir. Şairin müasiri olduğu Azərbaycan hökmdarları onunla sıx əlaqə saxlamış, Məhəmməd Cahan Pəhləvan Eldəgiz onun adına yeni bir əsər yazmağı Nizamidən xahiş etmişdi. Məhəmməd Cahan Pəhləvandan sonra hakimiyyətə keçən Qızıl Arslan

şairi görmək üçün Gəncəyə gəlmiş, Gəncə şəhəri yaxınlığında onunla görüşmüşdür. Şirvanşah Axsitan da Nizamiyə qasid göndərərək ona Leyli Məcnun məhəbbəti haqqında əsər yazmağı təklif etmişdir. Nizami özünün "Yeddi gözəl" poemasını da Azərbaycan hökmdarlarından Marağa hakimi Əlaəddin Körpə Arslana ithaf etmişdir. "Xəmsə"nin son əsəri "İsgəndarnamə"də şair Gəncədə baş verən dağıdıcı zəlzələdən bəhs etmiş, şəhərin zəlzələ nəticəsində viranəyə çevrildiyini ürək ağrısı ilə təsvir etmişdir.

Nizaminin əsərləri eyni zamanda onun saf, təmiz mənəviyyatı, xeyirxah təbiəti, bəşəri arzuları və pak niyyəti haqqında da aydın təsəvvür yaradır.

Nizami 1209-cu il martın 12-də doğma şəhəri Gəncədə vəfat etmişdir. İndi onun məzarı üzərində möhtəşəm bir məqbərə ucalmaqdadır. Dahi şair və mütəfəkkirin adı doğma vətəni Azərbaycanda əbədiləşdirilmiş, əsərləri dəfələrlə kütləvi tirajla nəşr olunmuşdur.

Nizaminin ilk iri həcmli əsəri "Sirlər xəzinəsi" poemasıdır. Yaxın və Orta Şərq ədəbiyyatında didaktik poema janrının ən qiymətli nümunəsi olan bu əsər dahi şairin yaradıcılığında epik şeir sahəsində ilk qələm təcrübəsi idi. Əsər hicri tarixilə 570-ci ildə yazılmışdır ki, miladi təqvimilə 1174-1175-ci illərə uyğun gəlir.

Poemanın əsas məzmununu iyirmi məqalət təşkil edir. Bu məqalətlərin hər birində Nizami müəyyən aktual bir problemi əsas götürərək şərh etdikdən sonra onu maraqlı bir hekayə ilə aydınlaşdırır. Bu hekayələrin mövzusu xalq ədəbiyyatı və tarixi şəxsiyyətlərlə bağlı olsa da şair hər hekayədən çıxardığı nəticə ilə müasirlərinə üz tutur, dövrünün ədalətsiz hökmdarlarını, insafsız darğalarını, vəzir və başqa ixtiyar sahiblərini ədalətə, xalqın qaygısına qalmağa çağırır. Şair zəmanəsinin yalançı sufilərini,

zəhmətə xor baxan tüfeyli gəncləri, sədaqətsiz dostları, dili uzun, hünəri az adamları tənqid edir. O, “Nuşirəvan və bayquşların söhbəti” hekayəsində dövrünün zalım şahlarına quşların dili ilə ədalət dərsi verir.

“Sirlər xəzinəsi”ndə əməyin, zəhmətin tərənnümü xüsusilə qabarıq verilir. Şair öz əlinin zəhməti ilə dolanan sadə insanlardan məhəbbətlə söz açır, son dənini torpağa səpib onu gözlərinin yaşı ilə suvaran, yeri dırnaqları ilə şumlayan qoca əkinçinin, ona-buna əl açıb abrını tökməmək üçün qışın soyuğuna, yayın istisinə baxmayaraq ağır zəhmətə qatlaşan kərpickəsən kişinin əməyini qürurla təsvir edir.

Poemada ağıl, zirəklik, sədaqət, dostluq kimi gözəl sifətlər haqqında xüsusi bəhs edilir.

Nizaminin Şərq şeirinə gətirdiyi yüksək bəşəri ideyalar 1180-ci ildə bitirdiyi ikinci poeması “Xosrov və Şirin”də epik planda daha ətraflı ifadə olunur.

“Xosrov və Şirin” insan hünəri, zəhmət və sənəti məhəbbətlə tərənnüm edən bir əsər kimi də Şərq ədəbiyyatında özünəməxsus bir yer tutur. Şairin böyük məhəbbətlə təsvir etdiyi Fərhad obrazı bu baxımdan daha diqqətəlayiqdir. Ülvi bir məhəbbətlə sevən Fərhad eyni zamanda Nizaminin sənətə və sənətkar əməyinə rəğbətini aydınlaşdırır. Öz sevimli qəhrəmanının ölümünə ürəkdən təəssüflənən böyük şair sərt qayaları yarıb arxlar çəkən, təkbaşına əzəmətli dağla pəncələşən bu sənət adamının izsiz-əlamətsiz həyatdan getmədiyini xüsusi qeyd edir. Nizami xalq rəvayətindən faydalanmaqla Fərhadın külüngünün dəstəsinin torpağa sancılaraq böyük nar agacına çevrildiyini, beləliklə də sənətkarın adının təbiətdə qorunub saxlanıldığını bildirir.

Nizami poemaları yarandığı gündən xalq ədəbiyyatına keçərək Şərq nağılları, qəhrəmanlıq və məhəbbət dastanlarında da güclü əks-səda doğurmuş, yeni-

yeni əfsanə, rəvayət və başqa xalq ədəbiyyatı nümunələrinin yaranması ilə nəticələnmişdir. Şairin hikmətli beytləri canlı danışıq dilində atalar sözləri kimi əbədiləşmişdir. Nizami əsərlərinin nadir əlyazma nüsxələri Moskva, Sankt-Peterburq, Bakı, Daşkənd, Təbriz, Tehran, İstanbul, Dehli, London, Paris və başqa mədəniyyət mərkəzlərinin kitabxanalarını bəzəyir.

Nizami irsi xüsusilə şairin öz vətənində daha böyük məhəbbətlə öyrənilmiş, şairin dövrü, həyatı və yaradıcılığı dərindən və hərtərəfli tədqiq olunmuşdur. 1941-ci ildə Nizaminin anadan olmasının 800 illiyinin bayram edilməsi münasibətilə bütövlükdə "Xəmsə" və Nizaminin lirik irsi Azərbaycan və rus dillərinə çevrilərək nəşr olunmuş, şairin əsərləri özbək, türkmən, qazax, qırğız, tatar, ukrayna, latış, litva dillərinə tərcümə olunmuşdur.

## II B Ö L M Ə

# Yubiley tədbirlərinin keçirilməsi

Nizami Gəncəvi dünya ədəbiyyatında böyük məhəbbət və hörmətlə yad olunan, tədqiq edilən şairlərdəndir. Əzəmətli yaradıcı və filosof olan Nizami 1188-1205-ci illər arasında “Sirlər xəzinəsi”, “Xosrov və Şirin”, “Leyli və Məcnun”, “Yeddi gözəl”, “İsgəndərnamə” adlı beş böyük sənət əsəri yaratmışdır.

“İsgəndərnamə” iki hissədən ibarətdir ki, bunların hər biri adətən “Şərəfnamə” və “İqbalnamə” adı ilə iki iri kitab halında çap olunub. Adını çəkdiyimiz beş böyük poemanın beşi bir yerdə “Xəmsə” adlanır. Bu beş qiymətli və iri poemadan başqa Nizami altı qəsidə, 116 qəzəl, iki qitə və 30 rübai də yaratmışdır. Göründüyü kimi, böyük şair Şərq dünyasında məlum olan və bir sıra görkəmli sənətkarların ilhamla qələm işlətdikləri bütün poetik formalarda əsərlər yaratmışdır. Nizaminin qələmindən çıxmış əsərlər insanlarda yüksək zövq, böyük dərrakə və ağıl tərbiyə edən, insanın həm özünü, həm də mühitini çox geniş planda, bütün təzadları ilə təsvir edən uzun ömürlü, ölməz əsərlərdir.

Dünya ədəbiyyatında “Xəmsə” kimi dərin, zəngin məzmunlu, bədii forması etibarilə rəngarəng, oynaq süjetli böyük əsər tapmaq çətindir. Nizami ona görə belə misilsiz, əzəmətli əsərlər yaza bilmişdir ki, bütün həyatını, bütün mənəvi aləmini və qüvvəsini yaradıcılığa, dünya ədəbiyyatını öyrənməyə, təhlil etməyə, araşdırmağa həsr etmişdi.

Beləliklə, dünya ədəbiyyatında böyük məhəbbət və hörmətlə yad olunan dahi şair, mütəfəkkir Nizami Gəncəvinin hər zaman olduğu kimi, bu il də yubileyini qeyd etmək ərəfəsindəyik. Bu baximdan respublikamızın hər bir yerində, rayon və şəhərlərində, eləcə də respublikamızın hüdudlarından kənarda da Nizami Gəncəvi irsi öyrənilir və təblig olunur. Nizami Gəncəvi irsi ilə daha yaxından tanış

olmaq üçün onun həyat və yaradıcılığının tədrisi, əsərlərinin təlim-tərbiyə işində danılmaz rolunu təbliğ etmək üçün respublikamızın bütün məktəb, lisey, gimnaziya, muzey və kitabxanalarında bir sözlə ümumtəhsil ocaqlarında tədbirlər planı hazırlanmalıdır. Tədbirlər planına ilk öncə Nizami Gəncəvi yaradıcılığı ilə bağlı kitab sərgisini daxil etmək lazımdır. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “Dünya ədəbiyyatının günəşi”, “Bəşəri ideyalar carçısı”, “Nizami Gəncəvi-875”, ”Şair dühasının sönməz işığı”, “Azərbaycan şairi və mütəfəkkiri”, “Dünya poeziyasının iftixarı”, “Mənəvi sərvətlər xəzinəsi Nizami Gəncəvi-875”, “Poeziyamızın sönməz günəşi”, “Əsrlərə yadigar qalmış ad”, “Şeir səmasının sönməz günəşi”, “Şairin rübabı ölməzdir”, “İnsana inam poeziyası”, “Həyata səsləyən lirika”, “Nizami dühası, Nizami sənəti”, “Hikmət dəryasından damcılar”

**Kitab sərgisinin nümunəsini veririk:**

**Başlıq:** “Poeziyamızın sönməz günəşi”

Nə qədər şair var, söz var, şeir var

Dünyada onlardan mənəm yadigar.

*Nizami Gəncəvi*

3. Nizami Gəncəvinin portreti.
4. Görkəmli şəxsiyyətlərin Nizami Gəncəvi haqqında söylədikləri sitatlar.
5. Kitablarının nümayişi.
6. Dövrü mətbuatda nəşr olunmuş məqalələrin kartotekası(tövsiyə ədəbiyyat siyahısı)

7. “Sirlər xəzinəsindən” nümunələr.
8. Şeir parçası.

Bacarsan hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir əmək.
Sən də əldən düşüb yorulsan əgər,
Sənin də yükünü bütün el çəkər.

Kitabxanada Nizami Gəncəvinin əsərlərindən fotolar, illüstrasiyalar və miniatürlərdən ibarət stendlər də təşkil etmək olar.

---

## Görkəmli şəxsiyyətlərin Nizami Gəncəvi haqqında söylədikləri:

1. “Azərbaycana, Azərbaycan xalqına təkcə Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bağışladığına görə Gəncə torpağı, Gəncə xalqı, gəncəlilər əbədi minnətdarlığa layiqdirlər”.

Heydər Əliyev
*ümummilli lider*

2.“Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur “Xəmsə”si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur....”

İlham Əliyev
*Azərbaycan Respublikasının Prezidenti*

3. Nizami bir fildir, yox bərabəri,
Söz incisi ondan aldı dəyəri,
Gəncədə olsa da aramı onun,
Xəzinələr üstədir məqamı onun.

Ə. Nəvai

4. Nizaminin parlaq və tərifəlayiq kamilliyinin izahata ehtiyacı yoxdur. Çünki heç kimin onun qədər xoş və incə mənalar saçmağa qüdrəti ola bilməz, bu, insan nəslinin imkanları xaricindədir.

Cami

5. Şeyx Nizami böyük şairlərdən birisi olub. Onun kimi fəsih, rəvantəb və şirinzəban şair dünya üzərinə az gəlibdir. Heç bir şair o lətafət və zəriflikdə söz deməyibdir...

F.Köçərli

6. Dünya dühalarının birinci cərgəsində duran Nizamini biz qabaqcıl düşüncənin və əxlaqın müjdəçisi kimi əzizləyirik.

N.Tixonov

7. Bəşəriyyətin böyük oğlu, Azərbaycan xalqının coşqun ilhamlı nəğməkarı N. Gəncəvinin qarşısında baş əyirəm.

Ç.Aytmatov

8. Azərbaycan xalqının şərəfi və iftixarı olan Nizami Gəncəvi dünya ədəbiyyatında elə nəhəng simalardan biridir ki, onun yaradıcılığı bəşəriyyətin bədii təfəkkür salnaməsinin qızıl fonduna daxildir.

M.İbrahimov

9. Həkimi-mənəvi Şeyx Nizami Gəncəvinin böyüklüyünü və fəzilətlərini söyləməkdə dil acizdir. Zərifliyi, söz və söhbətilə məclis bəzəməkdə, ümumun rəyincə onun misli olmamışdır.

A.Bakıxanov

10. Nizaminin bilik və kamalda böyüklüyü o dərəcədədir ki, yazmaqda qələm, söyləməkdə dil acizdir. Onun sözündə şirinlik, məlahət və gözəllik var. Odur ki, kamal sahibləri onu sevirlər.

Dövlətşah Səmərqəndi

11. Sənsən əbədiyyət dediyim sevgili dildar,
Daşlarda, çiçəklərdə, ürəklərdə adın var.
Aydanmı, günəşdənmi yarandın, de nədən sən?
Xalqın gözü də, qəlbi də, vicdanı da sənsən!

Səməd Vurğun

## ƏSƏRLƏRİNDƏN İLLÜSTRASİYALAR













# Kitablarının nümayişi:






























Nizami Gəncəvi yaradıcılığı ilə bağlı keçirilən tədbirlər siyahısına kiçik yaşlı uşaqlar üçün təşkil olunan Nağıl saatını da daxil etmək olar. Nağıl saatı əsasən kiçik yaşlı oxucular üçün nəzərdə tutulduğundan tədbir kitabxananın Nağıl otağında keçirilir. Nağıl otağı müxtəlif dekorasiyalarla bəzədilir. Tədbiri giriş sözü ilə kitabxanaçı açır. Dahi şair Nizami Gəncəvi haqqında ətraflı məlumat verdikdən sonra səhnəyə Tülkü, qurd və bir çox heyvanların personajları daxil olur. Kitabxanaçı "Meyvəsatanla tülkünün və cibkəsənin hekayətini" balaca oxuculara oxuyur.

**"Meyvəsatanla tülkünün və cibkəsənin hekayəti"**

Yəməndə meyvə satan
Bir dükançı yaşardı,
Dükanını qoruyan
Tülkü balası vardı.

Təlim-tərbiyə görmüş
Gözətçiydi bu yavru.
Sahibinin malını
Diqqətlə qoruyurdu.

Yüz cür oyun çıxartdı,
Fənd işlətdi cibkəsən.
Əsərlənmədi əsla
Bala tülkü kələkdən.

Fikirləşdi çibkəsən,
Yumdu gözünü dərhal,
Çoxdan yatıbdır guya,
Yuxusu da şəkər, bal.

Tülkü bu qoca qurdu
Yatmış görüb yumşaldı,
Yerə qoydu başını,
O da uyğuya daldı.

Tülkünü yatmış görüb
Fürsət tapdı çibkəsən.
Çaldı pul kisəsini,
Getdi, itdi nəzərdən.

Keşikdə duranların
Qorxuludur yatmağı,
Ya başı əldən gedər,
Ya başından papağı.

Dünya ədəbiyyatı xəzinəsinə nadir bir sıma kimi daxil olmuş görkəmli filosof, mütəfəkkir, və söz sənəti mülkünün sultanı Nizami Gəncəvinin 875 illiyi ilə əlaqədar kecirilən

tədbirlərdən biri də şeir müsabiqəsidir. Şeir müsabiqəsi oxucuların çox sevdiyi tədbir formasıdır. Çünki, bu tədbirdə oxucuların şeir demək bacarığı, onu yadda saxlamaq, intonasiya ilə söyləmək bacarıqları üzə çıxır. Tədbirə kitabxanaçı bir ay qabaqcadan hazırlaşmalıdır. Şeir müsabiqəsində münsiflər də yer alır. Yaxşı seir demək bacarığı olan uşaqlar münsiflər tərəfindən I, II, III yerlər üzrə qiymətləndirililər. Aşagı sinif şagirdləri ilə Nizami Gəncəvinin "Kərpickəsən qocanın bir cavanla hekayətin"ni səhnələşdirilmiş formada keçirmək olar.

***Kərpickəsən qocanın bir cavanla hekayəti***



Deyirlər Şam tərəfdə bir qoca kişi vardı,
Pəri kimi xalq ilə onun nə işi vardı.
Əyninin köynəyini ot - ələfdən hörərdi,
Kərpic kəsib birtəhər dolanar, gün görərdi...
Qılınclı ərlərin ki, düşərdi qalxanları,
Məzarına kərpicdən döşərdi "qalxanları".
Kəfənsizin kəfəni, duvağıydı kərpici,
Günahkarın ağzının suvağıydı kərpici.
Bir gün yenə işiylə başını qatdı qoca,
Əldən- dildən düşərək qan- tərə batdı qoca.
Birdən – birə göründü gözə bir cavan oğlan,
Başladı məzəmmətlə sözə bir cavan oğlan:

“Bu düşkünlük, zəlillik səncə, hara yaraşar?
Palçıq- saman yoğurmaq muzdurlara yaraşar.
Torpağın qalxanını qılıncınla sökmə sən,
Bir qarın çörək üçün öz abrını tökmə sən.
Bu kərpic qəlibini yandırıb külə döndər,
Ömrün xəzan bağını əlinlə gülə döndər.
Daş kimi kəltənlərə bel vurmaqdan nə çıxar?
Bəlimli palçıqları yoğurmaqdan nə çıxar?
Qocasan, qocaların yerişini yeri sən,
Yorularsan, cavanın yerişini yerisən”.
Qoca dedi: “Nadanlıq havası var başında,
Ağsaqqala gülürsən belə cavan yaşında.
Qocalar kərpic kəsər, halallıqla yaşayar,
Kölələr, əsir qullar ağır yüklər daşıyar.
Qarşında boyun büküb əl açmayım deyə mən,
Əzəldən əl atmışam belə bir peşəyə mən.
Nə xəzinə yığanam, nə də tirmə geyənəm,
Öz halal zəhmətimin çörəyini yeyənəm.
Halalca nemətimə naşükür olma mənim,
Nemətə xor baxana nemət qənimdir, qənim.”
Qocaya tənə vuran peşmanladı sözündən,
Gözdən itən zamanda yaş axıtdı gözündən.
Dünya görmüş insandı, qoca belə qocaydı,
Namuslu zəhmətiylə el gözündə ucaydı.
Unut dünya evini sən burada, Nizami!
Məslək eşqi yetirər hər murada, Nizami!

Nizami yaradıcılığı daha dərindən tədqiq edilməsi məqsədilə oxucular arasında “Nizami vətənpərvər şairdir” mövzusunda adlı inşa müsabiqəsi də keçirmək olar.

Nizami irsinin təbliği ilə bağlı oxucu konfransının keçirilməsi məqsədəuyğundur. Oxucu konfransının keçirilməsində məqsədimiz oxucuları Nizami Gəncəvinin əsərlərinə geniş maraq oyatmaqdan ibarətdir. Dahi şairin yaradıcılıq irsinin kitabxanalarda təbliğ edilməsində oxucu konfranslarının keçirilməsi olduqca önəmlidir. Bu tədbir forması bir qədər çox vaxt apardığından kitabxana işçiləri əvvəlcədən xüsusi hazırlıq işləri görməlidir. Tədbirin maraqlı və canlı keçirilməsini təmin etmək üçün ədəbiyyat müəllimlərini, şair və yazıçıları, yaradıcı birliklərin işçilərini, ziyalıları, fəal oxucuları işə cəlb etmək, tədbirə dəvət etmək məqsədəuyğun olardı. Kitabxanaçı oxucu konfransını aşağıdakı mövzular üzrə keçirə bilər:

“Dahi Azərbaycan şairi Nizami Gəncəvi”, “Əsrlərin şairi Nizami”, “Nizami və şifahi xalq ədəbiyyatı”, “Nizami yaradıcılığının bədii xüsusiyyətləri”, “Dünya poeziya sənətində Nizaminin cahanşümulluğu” və s. Kitabxanaçı konfransın keçirilməsi üçün ayrıca plan tərtib etməlidir. O, planda keçiriləcək tədbirin adını, giriş sözü və eləcə də çıxış edəcək başqa şəxslərin adlarını göstərməlidir. Nizami Gəncəvi yaradıcılığına həsr edilmiş konfransda şairin əsərlərindən və onun haqqında yazılmış materiallardan ibarət sərgi, tövsiyə ədəbiyyat siyahıları, kitabxana plakatları, bülletenlər, bukletlər, bədii və sənədli filmlərin nümayişi, elektron məlumat bazasının, Nizami Gəncəvi yaradıcılığına həsr edilmiş slaydın təqdimatı və s. nəzərdə tutula bilər.

Nizami Gəncəvi yaradıcılığı ilə bağlı keçirilən tədbirlərdən biri də kitab müzakirəsidir. Kitab müzakirəsi ilə bağlı onu demək istərdik ki, bu tədbir oxucuların ən çox maraq göstərdiyi tədbirlərdən biridir. Belə tədbirlərin

keçirilməsində məqsəd oxucuları kitabxananın fondunda yer alan kitablarla tanış etmək, onların məzmununu müzakirə etmək, kitabın nədən bəhs edildiyini açmaqdan ibarətdir.




Nizami Gəncəvinin “Günəş Diyarı” adlı kitabının müzakirəsini sizə təqdim edirik: Kitabda əsasən “Xəmsə”dən hekayətlər, əfsanələr və rəvayətlər verilmişdir. Kitab 2002-ci ildə “Ayna” nəşriyyatı tərəfindən müəllif Telli Əliyeva tərəfindən nəfis şəkildə tərtib olunmuşdur.

Kitabxanaçı tədbiri giriş sözü ilə açır:

Azərbaycan zaman-zaman dünyaya söz sənəti xəzinəsini nadir incilərlə zənginləşdirən böyük sənətkarlar bəxş etmişdir. Bunların sırasında Nizami Gəncəvi yaradıcılığı möhtəşəmliyi, müdrikliyi və həyatiliyi ilə seçilir. Bəli, Nizami o sənətkarlardandır ki, dərin fəlsəfi məzmunu yüksək poetik dillə, aydın, anlaşıqlı bir tərzdə oxucularına çatdırıla bilmişdir. Elə bu səbəbdəndir ki, yazıldıqları dövrdən 800 ildən artıq bir vaxt keçməsinə baxmayaraq, onun əsərləri öz bədii dəyərini bu gün də saxlayır. Əziz oxucu, böyük şairin yaradıcılığının məhz bu xüsusiyyətini nəzərə alaraq onun gələcək nəsillər üçün qoyub getdiyi zəngin irsdən bəzi nümunələr bu kitabda öz əksini tapmışdır. Lakin müəllif Nizaminin əlimizdə olan əsərlərini dövrün tələbinə uyğun olaraq fars dilində yazdığından şairin poemalarından seçdiyi əfsanələri, rəvayətləri və ibratəmiz hekayələri doğma dilimizə tərcümə etmişdir.

Əziz oxucu, Nizami yaradıcılığını kiçicik bir giriş sözündə əhatə etmək mümkün deyil və biz də qarşımıza belə bir məqsəd qoymamışıq. Şairin özü və yaradıcılığı haqqında məlumat bu kitabda toplanmış, onun ölməz poemalarından (“Xəmsə”sindən ) seçilmiş kiçicik, lakin son dərəcə qiymətli incilər məhz elə bu kitabda çap olunmuşdur. Bötövlükdə isə Nizami yaradıcılığının möhtəşəm bir söz məbədinin olduğunu bu kitabda öyrənəcəksiniz.

Təbiətin Azərbaycan xalqına bəxş etdiyi cahanşümul əhəmiyyətli bir mütəffəkkirin anadan olmasının 875 illiyi münasibətilə kitabxanalarda keçiriləcək tədbirlərə sual-cavab gecəsini də daxil etmək olar. Sual-cavab gecələri bir çox başlıqlar altında keçirilə bilər. “Nizami Gəncəvini necə öyrənirik”, “Təsviri sənətimizdə Nizami Gəncəvinin obrazı necə yarandı?”, “Nizami müasirliyi”, “Nizami yaradıcılığında uşaq ədəbiyyatı nümunələri”, ”Nizami yaradıcılığının şagirdlərin mənəvi tərbiyəsində rolu”, “Nizaminin irsi ölməzdir” və s. mövzularında keçirmək məsləhətdir. İndi isə tədbirin suallarını sizə nümunə üçün veririk:

1. Nizami Gəncəvi kimdir?
2. Nizami Gəncəvi neçənci ildə və harada anadan olmuşdur?
3. Nizami Gəncəvinin hal-hazırda neçə illik yubileyi qeyd olunur?
4. Nizami Gəncəvinin hansı əsərlərinin adlarını çəkə bilərsiniz? Və bu əsərlər ümumilikdə necə adlanır?
5. Nizami Gəncəvinin adına ucaldılmış kompleks və abidə hansı şəhərdədir?
6. Əgər Gəncə şəhərində olmusunuzsa, şəhərin girəcəyində Nizami Gəncəvinin hansı əsərlərinin illustrasiyaları çəkilib?

7. Bakı şəhərində Nizami Gəncəvinin adını daşıyan küçə, metro, kinoteatr, institut və s. yerlərin adlarını çəkə bilərsinizmi?
8. Nizami Gəncəvi öz poema və əsərlərində hansı müsbət və mənfi keyfiyyətləri önə çəkir?
9. "Yaxşılıqla çatdırsa hər кəs işini sona,
   Yaxşı üz göstərəcəк öz yaxşılığı ona"
   cümləsi Nizami Gəncəvinin hansı əsərindəndir?
10. Nizami Gəncəvinin "Leyli və Məcnun" əsəri necənci ildə tamaşaya qoyulub və ilk Leyli və Məcnun rolunun ifaçısı kim olub?

Tədbirin sonunda kitabxananın təşkilatçılığı ilə oxucular Opera və Balet teatrında "Leyli və Məcnun" tamaşasına baxa bilərlər.

Böyük söz sərrafı, şair-mütəffəkkir N. Gəncəvinin ədəbi irsinin müxtəlif yönlərdən tədqiqi və öyrənilməsi dünya nizamişünaslığında zəruri məsələ olub, ildən-ilə genişlənir və yeni məzmun kəsb edir. Elə bu baxımdan da Nizami Gəncəvi yaradıcılığına bir daha müraciət etmək, onun yaradıcılığını geniş oxucu kütləsinə sevdirmək üçün kitabxanalarda ədəbi-bədii gecə və ya poeziya gecəsinin keçirilməsi məqsədəuyğundur.

**"Nizami dünyasının işığı"** adlı ədəbi-bədii gecəyə kitabxanaçı bir ay qabaqcadan hazırlaşır. Tədbirə bir çox şair və yazıçılarla yanaşı ədəbiyyat müəllimlərini, kitabxanaçıları, tələbə və şagirdləri və həmçinin Nizami yaradıcılığının tədqiqatçılarını dəvət etmək olar. Tədbirin ədəbi hissəsi çıxış və məruzələrlə başlanır. Bədii hissədə Nizaminin kəlamlarından, şeirlərinə yazılmış musiqilərdən və əsərlərindən parcalar səsləndirilir. Həmçinin dahi şairin bir çox şeirlərinin əsasında səhnəciklər göstərilə bilər. Səhnə gül dəstələri ilə bəzədilir. Şairin portreti səhnənin

divarından asılır. N.Gəncəvinin hikmətli sözlərindən istifadə edilir.

Dəmiri aynatək parladan insan,
Pası silməlidir öz vicdanından.

**I Aparıcı:** Xalqımızın dahi şairi səkkiz əsrdən çoxdur ki, oxunur, öyrənilir, tədqiq edilir. Bu mənada Nizami irsini qiymətli metallarla zəngin olan nəhəng dağ silsiləsinə bənzətmək olar. Dünya ədəbiyyatı və mədəniyyətinin görkəmli nümayəndələri səkkiz əsrdən çoxdur ki, bilici geoloqlartək bu dağ silsiləsindən qızıl külçə, almaz, cəvahir götürürlər. Lakin onun sərvəti tükənmir, əksinə daha da zənginləşir, yeni laylar tapılır. Səkkiz yüz ildən çoxdur ki, Şərqin və Qərbin böyük filosofları, şairləri Nizami haqqında, onun ədəbi-fəlsəfi irsi və şəxsiyyəti haqqında yazır, qiymətli sözlər deyirlər.

Nizami Şərq ədəbiyyatı ənənələrinə sadiq qalaraq "Xəmsə"sində yaradanı (Allahı), peyğəmbəri, peyğəmbərin meracını, dövrünün şahlarını mədh etməklə yanaşı, yeri gəldikcə özü haqqında fəxriyyələr də söyləyir:

Nizaminin yanında özünü öyən olmaz,
Nizami olan yerdə şairəm deyən olmaz.
Əlçatmaz zirvədəyəm, sarsılmazdır dayağım,
Bundan da yüksəklərə dəyməlidir ayağım.

**II Aparıcı:** Nizami yeni tərzdə, yeni üslubda söz deyən nadir sənətkardır. Nizami ürəyi ulduzlara nur saçan Zöhrədir.

Nizamiyəm, xəyala dönənin biriyəm mən,
Həyacanlı sözümlə əbədi diriyəm mən.

Nizami beyninin yağı ilə özünü yandıran nurlu çıraqdır. O, sözü ilə əbədiyyət fərşi toxuyur, gözlərilə ürəkləri, ərşi oxuyur, hünəri ilə göylərə yüksəlir.

Sığışmazsan qaranlıq, dar zindanda, Nizami,
Günəş kimi işıq saç bu cahana Nizami!

**I Aparıcı:** Nizami el gözündə düzlüyü ilə ucalır, qəlbinə, ilhamına düzlükdən güc alır, hər cür tilsimi söz xəzinəsi, nurlu qəlbi ayna sinəsi ilə sındırır. Nizami Gəncədə yaşasa da, özünü dünyanın söz hakimi hesab edir:

**Aləm deyir: "Övladsan sən dünyaya, Nizami,**
**Sığışmazsan Gəncədə gen dünyaya, Nizami".**
**Boğazımı gör necə düyünləyibdi Gəncə,**
**Yoxsa, İraq xəzinəsi mənim olardı, məncə.**

Nizami özünün böyüklüyünü dərindən dərk edir və bütün şairlərdən, hətta Firdovsidən də üstün bir şair olduğuna işarə edir. Nizami özünə qızıl boyunbağı saydığı Gəncədən heç yerə getmir, özünün kasıb süfrəsinə qane olub möhtəşəm əsərlərini yaradır.

**Yüz il sonra sorsan bəs o hardadır,**
**Hər beyti səslənər: "burda, burdadır".**

**II Aparıcı:** "Xosrov və Şirin"i yaratmaqla qazandığı böyük şöhrəti, Şirvanşahın sifarişilə "Leyli və Məcnun" poemasını işləyib başa çatdırdığını görən şair söz meydanının özünə qaldığını hiss edir və dünyaya meydan oxuyur.

**Gəldi söz meydanı, mənəm sənətkar,**
**Bu gün məndən gözəl söz deyənmi var?**

“Leyli və Məcnun”da oğlu Məhəmmədin şeirdə, sənətdə məharəti olduğunu görən şair onun şairlik etməsini məsləhət görmür.

**Seirdən ucalıq umma dünyada,**
**Çünki Nizamiylə qurtardı o da.**
**Nə qədər şair var, söz var, şeir var,**
**Dünyada onlardan mənəm yadigar.**

**I Aparıcı:** Bəli, Nizami kimi şair dünyaya bir daha gəlməyəcək. Gəlsə də, dünyada onun kimi şair olmayacaq. Nizami “İsgəndərnamə” də sanki yaradıcılığına yekun vururmuş kimi, öz-özünə hesabat verir. O, beyninin, qanının çeşmələrindən çoxlu incə sözlər sıxıb süzürsə də, doymur, ilhamı yenə də çağlayır.

(*Səhnəyə oxucular daxil olur və hikmətli kəlamları söyləyirlər.* )

Bacarsan hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir əmək.
Sən də əldən düşüb yorulsan əgər,
Sənin də yükünü bütün el çəkər.

Yamanlıq etməkdən uzaq ol, uzaq,
Pisliyin əvəzi pislik olacaq.
Eşitməmişsənmi bu məşhur sözü:
“Quyu qazan adam düşəcək özü”.

Yaxşılıq etməsən əgər insana,
Böyüklük şərəfi verilməz sana.
Bir kəsin dadına istəsən çatmaq,
O zaman ləngimə, tələs sən ancaq.

Birilə köhnədən olarsa kinin,
Kökünü qazıma onun nəslinin.
Atayçın oğuldan alma intiqam,

Çalış dost olasan onunla müdam.

Bir olsa yoldaşın, dostun əməli,
Daşdan su çıxardar onların əli.
Nifaq olan yerdə fəlakət də var,
Səadət günəşi birlikdən doğar.

Həddən çox yeməyə etmə sən adət,
Mədəni doldurmaq zəhmətdir, zəhmət.

Bir ürəkdə olmaz iki sevgili,
İki ürəklinin düz olmaz dili.

Əqilli bir işdir yumşaq danışmaq,
Axmağın işidir kobudluq ancaq.

İstəsən övladın olsun pak ürək,
Bir ata, bir ana tanısın gərək.

İki qəlb bir olsa dağı parçalar,
Böyük bir kütləni edər tarü-mar.

Hər uca tütbədən, biliniz, fəqət,
Alimin rütbəsi ucadır əlbət.

Əvvəl əyri bitən bir cavan budaq,
Zənn etmə qocalsa düzgün olacaq.

Hər kəs ki, zülm üçün qılıncı aldı,
Qan tökən şir kimi pəncəsiz qaldı.

İnsana arxadır onun kəlamı,
Ağlıdır hər kəsin dövləti, malı.

Quyuya salsan da yaxşılığı, bil,
Yenə qayıdacaq, o itən deyil.

Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.

Yaxşılıq etməsən əgər insana,
Böyüklük şərəfi verilməz sana.

Yamanlıq eləsə özgəyə hər kəs,
Çıxar qabağına, hədərə getməz.

Günəşə göz yumub yandırsan çıraq,
Külək söndürəcək onu, bil ancaq.

Çalış öz xalqının işinə yara,
Geysin əməlindən dünya zərxara.

Yaxşı adamların göz yum eybinə,
Yaxşı şey öyrətməz yaman göz sənə.

**II Aparıcı:** Nizami barlı-bərəkətli Azərbaycan torpağının özünəməxsus gözəlliklərini də məhəbbətlə tərənnüm etmiş, poemalarında canlanan rəngarəng təbiət təsvirlərində doğma Gəncənin səfalı çəmənlikləri, meyvəli-üzümlü bağları, sərin çeşmələri, Kəpəz və Göy Göl kimi nadir təbiət incilərinin füsunkar mənzərələrindən ilhamlanmışdır.

Nizaminin əsərlərində rəngarəng poetik vasitələrlə canlanan təbiət təsvirləri məzmununun ayrılmaz hissəsinə çevrilərək baş verən hadisələrlə də gözəl uyuşur, qəhrəmanların əhval-ruhiyyəsini tamamlayır.

**I Aparıcı:**Nizaminin yaşayib yaratdığı dövrdən bizi səkkiz yüz əlli ildən artıq bir vaxt ayırır. Lakin şairin əsrimizin problemləri ilə yaxından səsləşən ölməz irsi sonsuz məhəbbətlə tətqiq olunur, öyrənilir və örnək götürülür. Təsadüfi deyildir ki, müsair yazıçı və şairlərimiz Nizami mövzularına tez-tez müraciət edir, onun ölməz ideyalarından bəhrələnirlər. Nizami mövzularında "Nüşabə", "Fitnə", "Sevgi" kimi dram əsərləri yaranmış, şairin "Xosrov və Şirin" poemasının mövzusunda Səməd Vurğun "Fərhad və Şirin", Nazim Hikmət "Məhəbbət əfsanəsi" kimi gözəl əsərlər yaratmışlar. Müasir türk şairi Ceyhun Qansu "Fərhad və Şirin" adlı poemasında Fərhad obrazını xalqını sevmək, xalq səadəti uğrunda fədakarlıq kimi gözəl cizgilərlə zənginləşdirmiş, onu bir xalq qəhrəmanı kimi təsvir etmişdir.

**II Aparıcı:** Nizami yaradıcılığının nəşri, tədqiqi və təbliği bu gün də diqqət mərkəzindədir və bu sahədə atılan hər bir uğurlu addım bizi böyük Azərbaycan şairinin ölməz bəşəri ideyalarına daha da yaxınlaşdırır, bəşəriyyətin xoşbəxtliyi uğrunda mübarizədə onu bizim mənəvi müasirimizə çevirir.
Bəli, elə bu baxımdan da qeyd etmək istərdim ki, Nizaminin bizə qoyub getdiyi ədəbi irs tükənməz bir dəryadır. Biz kitabxanaçıların da borcu o olmalıdır ki, üzümüzü böyük şairin yaradıcılığına yubileydən-yubileyə tutmayaq. Nizami yaradıcılığı bizim əbədi mövzumuz olmalıdır. Onun yaradıcılığına tez-tez müraciət etmək və bu işə oxucuları cəlb etmək bizim ümdə vəzifələrimizdən biri olmalıdır.

**(***Oxucular səhnəyə daxil olur. Hikmət Ziyanın "Nizamiyyə Fəxriyyə" şeirini söyləyirlər***)**

**I oxucu:**

Azərbaycan! Xəritədə qartalım mənim!
Azərbaycan! Bu dünyada cəlalım mənim!..
İsinərik soyuqda da duyub odunu.
Tarix boyu il ötdükcə, artdıqca yaşın,

Nizamitək dahilərlə ucaldı başın!
**II oxucu:**
Azərbaycan! Azərbaycan! Odlar diyarı!
Hər payızda, qışda belə bahar diyarı!
Fəxarətlə söhbət açar şirin sözüylə,
Fəxr eləyib böyük xalqım Nizamisiylə!
**III oxucu:**
Nizami! Nizami! Bu böyük adı
Həm yer, həm göy, ulu dünya tanıdı!
"Xəmsə"si insanlıq qüdrəti oldu.
Qüdrətdən yaranmış bu beş dastanı
Nuruna qərq etdi bütün cahanı.
**IV oxucu:**
"Sirlər xəzinəsi" birinci dastan
Söz açdı insanın ucalığından.
Fəlsəfənin yüz-yüz sirri açıldı,
Hər söz kəlamından işıq saçıldı.
**V oxucu:**
İkinci dastanı "Xosrov və Şirin"
Ən saf duyğulardan söz açdı dərin.
Büsutunu eşqlə çapan Fərhadı
Eşqin zirvəsinə dağ tək ucaltdı.
**VI oxucu:**
"leyli və Məcnun"la, dünya ustadı
Məhəbbətə enməz heykəl yaratdı.
Məcnun dönməzliyin timsalı oldu,
Leyli sədaqətin misalı oldu.

**VII oxucu:**
"Yeddi gözəl" nədir, ən parlaq Gövhər,
Yeddilik üstündə qurulan əsər.
Şahları insafa, haqqa çağıran,
Vətəni sevməyin, örnəyi dastan!..
**VIII oxucu:**

“Xəmsə”nin ulduzu “İsgəndərnamə”
Bir günəş işığı saçır aləmə.
Ədalətli dövran, xalqı firavan
